**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin tətbiqi ilə bağlı bəzi məsələlər haqqında**

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsinin və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.5.2-ci və 5.5.7-ci yarımbəndlərini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanı ilə baxılması Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (bundan sonra – Nazirlik) aid edilmiş maddələrdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı aşağıdakı kimi müəyyən edilsin:

1.1. Məcəllənin 359-362-ci və 364-367-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının Telekommunikasiya və poçt şöbəsinin müdiri, sektor müdiri, baş və böyük məsləhətçisi;

1.2. Məcəllənin 362-1-ci, 362-2-ci və 363-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının Rabitə sahəsinin tənzimlənməsi şöbəsinin müdiri, şöbə müdirinin müavini, sektor müdiri, baş və böyük məsləhətçisi;

1.3. Məcəllənin 380-ci və 459.3-459.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının İnformasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin müdiri, şöbə müdirinin müavini, sektor müdiri, baş və böyük məsləhətçisi;

1.4. Məcəllənin 300-305-ci, 319.4-cü, 320.4-cü, 350.2-ci (Bakı şəhərinin inzibati ərazisində istisna olmaqla), 352.0.4-352.0.5-ci, 352.0.7-352.0.10-cu, 354.0.2-ci, 354.0.3-cü, 354.0.5-354.0.6-cı, 354.0.8-ci (yol hərəkətinin təhlükəsizliyi sahəsi istisna olmaqla), 354.0.9-354.0.10-cu və 469.1-ci (dəmiryol nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının Nəqliyyat sahəsinin tənzimlənməsi şöbəsinin müdiri, sektor müdiri, baş və böyük məsləhətçisi;

1.5. Məcəllənin 319.1-ci (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla), 319.2-319.3-cü, 320.1-ci (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm

şəhərdaxili sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla), 320.2-320.3-cü, 322.0.3-322.0.6-cı (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla) və 325.2-ci maddələrində, habelə iş üzrə icraat Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda, 322.0.1.-ci (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla), 322.0.7-ci (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla), 322.0.9-322.0.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirlik yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi və onun müavinləri, şöbə müdirləri, şöbə müdirlərinin müavinləri, sektor müdirləri, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin yerli qurumlarının rəhbərləri və onların müavinləri;

1.6. Məcəllənin 293-299-cu, 319.6-cı, 320.6-cı və 469.1-ci (hava nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirlik yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru və onun müavinləri, şöbə müdirləri, şöbə müdirlərinin müavinləri və sektor müdirləri;

1.7. Məcəllənin 307-309-cu, 310-cu (kiçik həcmli gəmilər istisna olmaqla) 312-318-ci, 319.5-ci, 320.5-ci, 469.1-ci (su nəqliyyatı vasitələri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə) və 566-cı (dənizçinin şəxsiyyət sənədinə aid hissədə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirlik yanında Dövlət Dəniz Agentliyinin direktoru və onun müavinləri, şöbə müdirləri, şöbə müdirlərinin müavinləri və sektor müdirləri.

2. Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokolun Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından tərtib edilməsi səlahiyyəti aşağıdakı kimi müəyyən edilsin:

2.1. Məcəllənin 369-cu və 370-ci maddələrində nəzərdə tutulmuş işlər üzrə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının Rabitə sahəsinin tənzimlənməsi şöbəsinin müdiri, şöbə müdirinin müavini və sektor müdiri;

2.2. Məcəllənin 370-1-ci, 375-ci, 379-cu (fərdi məlumatların informasiya sistemlərinə münasibətdə), 388-1-ci və 459-2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının İnformasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin müdiri, şöbə müdirinin müavini və sektor müdiri;

2.3. Məcəllənin 325.1-ci, 326-cı və 552-ci (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Nazirliyin Aparatının Nəqliyyat sahəsinin tənzimlənməsi şöbəsinin müdiri və sektor müdiri;

2.4. Məcəllənin 267-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə — nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, nazirin birinci müavini və müavinləri, Nazirliyin Aparatının rəhbəri və Aparatın rəhbərinin müavini, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə

və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş və böyük məsləhətçisi.

3. Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə tapşırılsın ki, Məcəllənin 325.1-ci, 326-cı və 552-ci (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərlə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 iyul tarixli 472 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətləri çərçivəsində tədbirlər görsün.

4. Müəyyən edilsin ki, bu əmrdə nəzərdə tutulmuş İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə inzibati xətalara dair işlərə baxılması ilə bağlı Dövlət Avtomobil Nəqliyyatı Xidməti, Mülki Aviasiya Agentliyi və Dövlət Dəniz Agentliyi tərəfindən qəbul olunmuş qərarlardan və tərtib olunmuş protokollardan edilmiş şikayətlərə Nazirliyin Aparatının Nəqliyyat sahəsinin tənzimlənməsi şöbəsi tərəfindən baxılır.

5. Məcəllənin 45-ci maddəsinə əsasən törədilmiş inzibati xətalar və həmin xətaları törətmiş şəxslər barədə məlumatların uçotu, sistemləşdirilməsi və saxlanılması məqsədi ilə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) baxılan inzibati xətalar haqqında işlər barədə elektron informasiya sistemlərinin yaradılması və fəaliyyətinin təmin edilməsi üzrə səlahiyyətli şəxs İnformasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin müdiri Rəşad Əzizov müəyyən edilsin.

6. Məcəllənin 125.4-cü maddəsinin icrasına nəzarət Telekommunikasiya və poçt şöbəsinə tapşırılsın.

7. Hüquq şöbəsinə tapşırılsın ki, aidiyyəti şöbələr və qurumlara hüquqi yardımın göstərilməsini, habelə maarifləndirmə işlərinin həyata keçirilməsini təmin etsin.

8. Protokol və qərar (qərardad) blanklarının saxlanılması, uçotu və təqdim edilməsi üzrə səlahiyyətli şəxs Nazirliyin Aparatının Sənədlərlə iş şöbəsinin aparıcı məsləhətçisi Gülbəniz Həsənova təyin olunsun.

9. Sənədlərlə iş şöbəsinə tapşırılsın ki, bu əmrin surətinin Nazirliyin aparatının struktur bölmələrinə, strukturuna daxil olan qurumlara və strukturuna daxil olmayan tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.

10. Əmrin icrasına nəzarət nazirin birinci müavini Əli Abdullayevə həvalə edilsin.

**Nazir** **Ramin Quluzadə**